## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, N 8, I kitab, maddə 584; 2001-ci il, N 1, maddə 24, N 3, maddə 139, N 7, maddə 455, N 11, maddələr 680, 698, N 12, maddə 731; 2002-ci il, N 1, maddə 9, N 4, I kitab, maddə 165, N 5, maddələr 234, 237, 239, N 6, maddə 326, N 8, maddə 463, N 12, maddə 692; 2003-cü il, N 1, maddələr 3, 13, 23, N 4, maddələr 177, 178, N 5, maddə 228, N 6, maddələr 257, 276, 279, N 8, maddələr 407, 425, N 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004-cü il, N 1, maddələr 6, 7, 10, 13, N 4, maddələr 200, 201, 204, N 5, maddələr 313, 314, 317, 321, N 6, maddə 397, N 8, maddələr 596, 597, N 10, maddələr 762, 779, N 11, maddə 900, N 12, maddə 973; 2005-ci il, N 1, maddələr 5, 6, N 2, maddə 61, N 4, maddələr 272, 273, 275, 278, N 6, maddələr 462, 466, N 7, maddə 576, N 8, maddələr 691, 692, N 10, maddələr 875, 877, 904, N 11, maddələr 993, 994, 995, N 12, maddələr 1083, 1085; 2006-cı il, N 2, maddələr 64, 68, N 3, maddələr 219, 220, 223, 225, N 5, maddə 385, N 6, maddə 478, N 11, maddələr 923, 924, 932, N 12, maddələr 1005, 1020, 1024; 2007-ci il, N 1, maddələr 3, 4, N 2, maddələr 65, 68, N 5, maddələr 397, 398, 401, 440, N 6, maddələr 560, 561, 562, 579, N 8, maddə 757, N 10, maddələr 935, 936, 938, 940, N 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, N 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008-ci il, N 2, maddə 47, N 3, maddələr 146, 152, 159, N 4, maddə 249, N 5, maddə 340, N 6, maddələr 454, 460, 461, 464, N 7, maddələr 601, 602, 605, N 8, maddələr 699, 701, N 10, maddələr 884, 885, N 11, maddələr 956, 957, N 12, maddələr 1045, 1047, 1049; 2009-cu il, N 2, maddələr 36, 45, 49, 52, 53, N 5, maddələr 309, 315, N 6, maddələr 404, 405, N 7, maddələr 517, 518, 519, N 8, maddə 611, N 12, maddələr 953, 954, 966, 971; 2010-cu il, N 2, maddələr 70, 71, N 3, maddələr 167, 171, 178, N 4, maddələr 275, 276, N5, maddələr 379, 380, N6, maddə 483; N 7, maddələr 577, 591, 594, 595, 598, 600, N 10, maddə 838, N 11, maddələr 936, 938, 949; N 12, maddə 1059; 2011-ci il, N 2, maddələr 70, 71, N 3, maddələr 162, 164, 167, 168, 170, N 4, maddələr 246, 254) aşağıdakı dəyişikliklər edilsin:

1. 53.8-ci və 330-cu maddələr çıxarılsın.

2. 339-cu maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 339. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması, yaşaması, yaxud Azərbaycan Respublikası ərazisindən tranzitlə keçməsi qaydalarının pozulması

339.1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma, yaşama və ya Azərbaycan Respublikası ərazisindən tranzitlə keçmə qaydalarını pozmasına, yəni:

339.1.1. Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, habelə qeydiyyatsız yaşamasına;

339.1.2. etibarsız sənədlərlə Azərbaycan Respublikasının ərazisində olmasına və ya yaşamasına;

339.1.3. Azərbaycan Respublikasının ərazisində müvəqqəti olduğu və ya müvəqqəti yaşadığı dövrdə Azərbaycan Respublikasına gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyətlə məşğul olmasına;

339.1.4. işə düzələrkən qanunvericilikdə müəyyən edilmiş qaydaları pozmasına;

339.1.5. bir yerdən başqa yerə getmə və yaşayış yeri seçmə üçün qanunvericilikdə müəyyən olunmuş qaydaya əməl etməməsinə;

339.1.6. qanunvericilikdə müəyyən edilmiş qalma müddəti qurtardıqdan sonra getməkdən boyun qaçırmasına;

339.1.7. Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçmə qaydalarına əməl etməməsinə görə -

əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla üç yüz manatdan dörd yüz manatadək miqdarda cərimə edilir.

339.2. Əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasına dəvət etmiş və onlara yaşayış sahəsi vermiş Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən həmin şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti bitdikdən sonra müəyyən olunmuş qaydada vaxtında ölkə ərazisindən çıxmasının təmin edilməsi üçün tədbir görülməməsinə görə -

üç yüz manatdan dörd yüz manatadək miqdarda cərimə edilir.

339.3. Azərbaycan Respublikasında əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri qəbul edən, onlara xidmət göstərilməsini və ya onların işə qəbul olunmasını təmin edən və onların Azərbaycan Respublikasında olması, yaşaması və ya Azərbaycan Respublikası ərazisindən tranzitlə keçməsi şərtlərinə əməl edilməsi ilə əlaqədar vəzifələri yerinə yetirən müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxsləri tərəfindən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alınmasının və qeydiyyatdan çıxarılmasının, onlara Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlərin rəsmiləşdirilməsinin müəyyən edilmiş qaydalarının pozulmasına görə -

vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək miqdarda cərimə edilir.".

3. Aşağıdakı məzmunda 340-1-ci maddə əlavə edilsin:

"Maddə 340-1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin işə cəlb edilməsi qaydasının pozulması

İşəgötürən tərəfindən qanunvericiliyin tələbləri pozulmaqla fərdi icazə alınmadan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin işə cəlb edilməsinə görə -

vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər otuz min manatdan otuz beş min manatadək miqdarda cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 iyun 2011-ci il

"Azərbaycan" qəzetinin 2 iyul 2011-ci il tarixli 141 (5831) nömrəli sayında dərc edilmişdir.